## Avdı QOŞQAR - 60



# NƏ DÜNYA BƏYAZDI - GÖRÜNDÜYÜ TƏK,

### BİR SEVDA AĞLAYIR...

Nə ovutmaq olur,
nə sözə baxır,
Düşüb damarıma -
qanımla axır.
Elə bil ürəyim ağzımdan çıxır,
Elə bil dəryada qərq olur gəmim -
Bir sevda ağlayır içimdə mənim.

Nə gecə, nə gündüz -
qurulu vaxtdı,
Bilmirsən adamdı,
yoxsa, xəyaldı?
Bütün sevincimi - əlimdən aldı,
Bütün varlığıma kəsildi qənim -
Bir sevda ağlayır içimdə mənim.

Uğuru nəs gələn qədəmlər kimi,
Sinəmə çəkilən sitəmlər kimi,
Atalı-analı yetimlər kimi -
Bir sevda ağlayır içimdə mənim!

Çarmıxa çəkilən ruhdu -
bilmədim,
Tufana tuş gələn Nuhdu -
bilmədim,
Yayından sıyrılan oxdu -
bilmədim.
Baxıb görə-görə
dözüb ölmədim -
Bir sevda ağlayır içimdə mənim.

23 may 2014

### BİR AZ...

Bir az canım ağrıyır,
bir az tutqundu başım,
Bir az həvəs azalıb, -
bir az dözüm korşalıb.
Ərpimiş ömür-gündü -
ilan kimi sürünür,
Quşu uçan yuvalar
ağzı günə boş qalıb.
Yer ağzına su alıb,
göy yaxası düyməli,
Nə dünən var döşə taxam,
nə sabah var öyməli.
Ala göydən
ağca-ağca daş ələnə -
başımıza dəyməli...
Bir az canım ağrıyır,
bir az tutqundu başım...
Qətrə-qətrə,
üysük-üysük axıb gedir göz yaşım...
Nə başıma tumar çəkən,
nə yasımı yığan var...
Ətrafım it sürüsüdür -
küçükləyib çoxalır...
Bir az canım ağrıyır,
bir az tutqundu başım,
Döyüşməyə taqətim yox,
qalsın sona savaşım...

### ANA, GÖZÜMÜN QARASI

Ana, gözümün qarası,
Gözümə qara çəkilir.
Bu dünya dar ağacıdı
Günlərim dara çəkilir.

Hər gün bir yeni qan-qada,
Öz içindən sınır adam,
Özümü yandıran odum -
Daşa, divara çəkilir...

Bir az da içim başqadı,
Bir az da seçim başqadı.
Dünyadan köçüm başdadı -
Bu karvan hara çəkilir?

### OSMANLI TORPAĞINDA YAZILAN ŞEİRLƏR

### ƏFƏNDİM İSTANBUL

Sən məni olduğum kimi
görmədin -
Əfəndim İstanbul.
duyduğun kimi oxumadın...
qarışdırdın başqalarıyla,
bəlkə də sıradan biri bildin,
bəlkə də minlərlə, milyonlarla -
gəlib-gedənindən saydın məni -
Əfəndim İstanbul.
Bilmədin ki,
ruhum çoxdan doluşub sokaklarına,
üstündə qərib durna kimi
dolanır belədən-belə -
Boğaziçini, Ayasofyanı,
Topqapı sarayını, -
bir də gözümlə içirəm -
türk böyüklərinin
yer titrədən
hayını, harayını -
Əfəndim İstanbul.

İzmir
10 dekabr 2012

### ƏLACIMI BURDA BULDUM...

Əlacımı burda buldum,
burda bulmalıydım elə.
Gərək geri dönməyəydim -
burda qalmalıydım elə.

Bərkmi dedim, -
yavaş yurddu,
Ölüm yurddu, -
savaş yurddu,
Bura ordan da baş yurddu, -
Yurdda ölməliydim elə.

Hər qul bəndənin öz yolu,
Nə ağır imiş söz yolu -
Nə uzun gəldim «düz yolu» -
Çoxdan gəlməliydim elə...

Qazi xəstəxanası
9 dekabr 2012

### OSMANLINI GƏZƏRKƏN

Bu nə sevgidi, ilahi,
süzülüb axır üzümə.
Baxışlardan leysan kimi -
tökülüb yağır üzümə.

Göydən gələn nur selimi,
Tanrı dağının yelimi,
Ya mən ağılda dəlimi?! -
Fərəhi sıxır üzümə.

Gülə sancılan arı tək,
Ulu ruhların yarı tək,
Min ilin tanışları tək -
Daş-divar baxır üzümə.

Mən düşünən kimi bu yer,
Ləhcə şirin, söhbət şeir,
Osmanlı torpağı deyir -
Duyduğun çıxır üzünə.

09 dekabr 2012

### QAYDASIZ OYUNLAR...

Bütün qaydaları bildim -
nə fayda?
Bütün bildiklərim -
özümə yağı.
Qaydasız yaşayan bu məmləkətin -
Nə başı bilinir,
nə də ayağı.

Bilinməz o qədər sirləri var ki,
«bilinən qaydalar» -
yerimir daha...
Burda qaydaları ötkəmlər yazır,
Qələmə düşənlər qalıb Allaha...
Bu yaşam qaydası,
bu mənsəb, bu yol,
Bu könül fəryadı, -
ayinlər gedir...
Bir az dilini yığ,
başını saxla,
Ölçüsüz, qaydasız oyunlar gedir...
«Gedir vurhavurnan» - kökü qazımaq,
Yerdə şırım əkmək, -
«şırım qaydası»...
Ölçüdən «yuxarı» qalxanı kəsmək -
«Öldürüm» qaydası,
«qırım» qaydası...
Oyuna düşmüşük, -
oyunun olsun,
Ay oyun sahibi,
oyunu quran.
Günün günortası,
göz qabağında -
Bu boyda millətin -
«toyunu quran»...
Daha sözüm yoxdur,
gözüm böyüyür...
...Bütün qaydaları bildim nə fayda -
Qaydasız yaşayan bu məmləkətin -
Qaydasız qorunan daşına dönüm.
Ayağına dönüm, başına dönüm -
Nə başı bilinir, nə də ayağı...

6 sentyabr 2012

### HEÇ BİR ŞEY OLDUĞU KİMİ GÖRÜNMÜR

Heç bir şey olduğu kimi görünmür, -
Hər şeyin altında -
bir alt qatı var,
Bir az da dərində
«gizli çatı» var -
Heç bir şey olduğu kimi görünmür...

...Yarğanın altında gürzə qıvrılır,
Üstündə otlayır qoyun atıyla
Gözümlə gördüyüm bu mənzərənin -
Əcəb oxşarı var -
bu həyatıyla
Heç bir şey olduğu kimi görünmür...

Nə dünya bəyazdı - göründüyü tək,
Nə göylər çilçıraq -
ulduz yığını.
İnsanın canında qaynayır kələk,
Gözəlin başına şeytan «yığılır» -
Heç bir şey olduğu kimi görünmür...

Mənim dərdlərimə yananım ana,
Məni məndən gözəl -
qananım ana.
Müqəddəs bildiyin bir şey qaldımı?!
Bu dünya gözündə qeylü-qaldımı? -
Heç bir şey olduğu kimi görünmür...

Nəyə qara deyim, nəyə ağ deyim?
Qaranın, narıncın çaları itib
İçimi söyləsəm -
məni yeyərlər, -
Gözümdə gözümün qərarı itib...
Heç bir şey olduğu kimi görünmür...

Ya mənə heykəl yap -
ya dara çəkdir -
Ya da ağrıları dübarə çəkdir -
Ya da ki, şəklini divara çəkdir.
Göstər göz dağıtək
gəlib-gedənə.
Qaibdən bir nəğmə oxunur yenə -
Heç bir şey olduğu kimi görünmür...

25 avqust 2013

### İNSAN NECƏ SINIR...

İnsan necə sınır, -
məndən soruşun,
Necə sınıb düşür, -
qüruru bir-bir.
Yaxşı ki, gəzəri tabutlar çoxdur -
Bu boyda cəsədi tutmazdı qəbir.

Göydən inamsızlıq toxumu yağır,
Ölü ruhlar kimi, -
qışqırır gecə.
Üstünə kölgə tək -
yalanlar gəlir -
İlan sürüsünə -
dözəsən necə?!
«Balam» söyləyəsən torpağa, göyə,
Səndən aşağılar - tüstünə gülə...
Ortada olasan -
heç kim görməyə,
«Qılınclı-qalxanlı» üstünə gələ
İnsan necə sınır - məndən soruşun!

«Doğmalar» içində - baxışı qanlı
Nə millət anlaya,
Nə də öz Balan.
Damcı ol, - buxarlan göylərə çəkil,
Ya da ki, beləcə baxıb havalan...
İnsan necə sınır -
məndən soruşun!
...Boş süfrə, soyuq ev, yaslı baxışlar -
Külək də həvəslə sovurur qarı.
Gəl indi salam ver - ürəklə daşa?!
Gəl indi dik saxla ölü vüqarı...

Ha qaldır - düzəlmir boyun, qamətin,
Baxıb acı-acı - sadəcə qımış...
Sınmayan sığışmır - bu boz həyata,
Kim desə sınmadım - o zatən sınmış...

07 fevral 2014

### OYNAYA KÜLƏKLƏR...

*«Çalışdım ki, ayağım büdrəməsin...»*
**Sevdanın dediklərindən...**

Bu sözün yolunda asılmaq olar,
Yağlı kəndir tapıb -
Dar ağacından.
Belə sənə sadiq bir yar tapasan,
Sallanıb qalasan yar ağacından.

Çaxa dəli şimşək
seli gəlməyə,
Oynaya küləklər
yeli gəlməyə,
Uzadıb qırmağa əlin gəlməyə
Bir cüt nar asıla nar ağacından.

Qadın bətni tarla -
saf dənin ola,
Bu yolu dü gedib-gələnin ola.
Üstündə dil deyib ölənin ola
Beşiyin qurula bar ağacında...

29 may 2014



Avdı QOŞQAR - 60

# NƏ GÖYLƏR ÇİLÇIRAQ - ULDUZ YIĞINI

*(Əvvəli 8-ci səhifədə)*

## İNSANI UÇURUB, QURMAQ NƏ ÇƏTİN

*Nizami Cəfərova*

İnsanı uçurub, -
qurmaq nə çətin.
Kösöv dışımaqdan
ağırdı bəlkə.
Əzabkeşlər gedir bir bitməz yolu,
Kürəyi, əlləri yağırdı bəlkə.

İnsanı uçurub, -
qurmaq nə çətin
Dırnağı ayırmaq olmur ətindən.
Küllükdə tor atır.
kül əlləşdirir,
Bəşər ayrılmayır öz xislətindən.

İnsanı uçurub, -
qurmaq nə çətin
Çətindi nəfsini geri yığasan,
İçi çölə çevir -
çətin məsələ.
Nəfsini qatla qoy ilan ağzına;
Ağıl gözünü aç -
yetişə hələ...

İnsanı uçurub, -
qurmaq nə çətin.
Bu yolda söz deyib,
çarə bulublar.
Zərrəcə təsiri yoxmu? -
Nə sirdi?
Qadasın aldığım -
insan övladı -
Yenə də lüt-üryan,
yenə yesirdi.

İnsanı uçurub, -
qurmaq nə çətin
Qurmamaq onnan da
min dəfə ağır.
Bir də görərsən ki,
cahil əliylə -
Göydən başımıza
od-alov yağır.
Di gəl qabağında dur,
bu gedişin,
Di gəl bu yalnışı
qaytar yerinə.
Gözünə nifrətdən qılınc geyənin,
Təzədən sevgi yığ bəbəklərinə.

İnsanı uçurub, -
qurmaq nə çətin.
Dağdı -
Silkələmək olmur yerindən,
Daşdı -
bir qamqalaq qoparmaq zülüm,
Bu, çox zor görünür -
Bu, mənlik deyil,
Gəlim suçlu-suçlu
önündə ölüm.

## MƏNİM SEVDİYİMƏ ÇOX OXŞAYIRSAN

Sanki bir almanı iki bölüblər,
bir yarısı odur,
bir yarısı sən.
O bir ilahəydi -
öz görkəmiylə,
Sən də ondan geri qalan deyilsən.

Necə də eynidi -
o boy, o qamət.
Xudam gözəlliyə
bir qələm çəkir.
Birinin həsrəti sinə göynədir.
Birinin əlindən gözüm nəm çəkir.

Gözü - can alırdı, -
gözümə təpdim,
Qaldı o gözlərdən ömür göynəyim.
Onu doğma bilib -
qəlbimə səpdim,
Buna kimim deyim,
kimim söyləyim?!

Doğmalar adamı içindən yeyir,
Çıxır axırına -
doğma dərd kimi,
Nə qəlb yadırğayır,
nə göz unudur -
Gözün yaşılını,
eşqin ilkini...
Sən mənə kimisə xatırladırsan,
«Doğma qənimimsən» -
deməli sən də...
Yoluma çıxıbsan,
bu da taledi.
Qürub günəşində,
qaş əyiləndə...

## SƏNƏ AÇMADIĞIM MƏHƏBBƏTİMİN...

Dillə qandalladım bir ürək sözü,
Qıydım, sevgi balam, ölə yuvada...
Beləcə kül altda basdırdım közü,
Beləcə vulkana səbir suvadım,
Sənə açammadım məhəbbətimi!



Bilmədin bir ümid alov yalayır,
Bir sağ ürək gəzir dərdini qoya.
Dünyada içimə alov calanır,
Bu alov payımdan çox aclar doyar.

O sirrin üstünə yükləndi dünya,
Allah, bu nə dünya, nə istək, nə sirr.
Sən mənim köksümdə sahibsiz yuva,
Sən mənim köksümdə islaq bir qəbir.

Qaya yapmalıydım - saflıqan qala;
Güc tapıb dünyadan bədliyi siləm.
Ay allah, zəmanə adlı burulğan
Mənim qələmi da batıra bilər...

Məni də cənginə keçirdi dünya,
Mənim də dağ eşqim qoltuğa sindi.
Təkcə sən safıydın sinəmdə guya,
Sən də zəhərləndin, ilk məhəbbətim.

Bulanır saflığın, necə dözüm mən,
Ağzım yaman yerdə dirənib dağa.
Müqəddəs qəbirim, səni sinəmdən
Bu dünya uzanır oğurlamağa?!

Ürəyim, hökmündə mətin ol, mətin!
Yerlərin, göylərin gözləri açdı...
Sənə açmadığım məhəbbətimin
Gör dünya başına nə oyun açdı?!..

**1979**

## DÜNYA GİLƏ-GİLƏ MƏNİ ÜYÜTDÜ

Dünya gilə-gilə məni üyütdü,
Sovurub, ələyib saldı «düz yola».
Bir ana göz dağı oğul böyütdü,
Dünya yiyələndi hazır oğula.

Qəlb vardı - axar su - çirk götürməyən,
Dağ vardı qeyrətdən - şimşəyi oynar.
Yol verdi, hər yollu yoluna dəymə,
Qol verdi hər dinən havaya oyna.

Oyna, bu bəxt payın, bu tale yükün,
Oyna, bəbəklərə küldü bu dünya.
Mənim bu dilbilməz harayım üçün
Dəli qəhqəhəylə güldü bu dünya.

Güldü, bu varlığı sinəmə yığıb,
Yığıldı köksümə qəlbi dağlılar.
Gördüm ki, yolların son ucu dağdı,
Gördüm ki, istəyin tükənməyi var.

Gördüm ki, qayalar dəlmə-deşikdi,
Neçə qəlpə yeri, neçə dağ yeri.
Baxdım ki, önümdə evdi-eşikdi,
Baxdım ki, ağlımda yaşamaq yeri.

Baxdım ki, yellərin əsimi tanış,
Sünbül tərpənişi, gördüm o deyil.
Günahdan qıraqda bir yer qalmamış,
Təmizlik allahı ölüb elə bil.

Oğul doğulmuşdum kişi böyüyəm,
Ölçülər əyməyə hər dizə məni.
Bir hərrac bazarı, bu dünya demə
Aldılar dəyərə, dəyməzə məni.

Əyimiş demirəm, gərilmiş qolam,
Adam fiqurunda bir ocaq kömür.
Üstümdən relslər salınmış yolam,
«Əlimdə ölümə məhkum bir ömür...»

## AY SƏMƏD ƏMİ

*Akif Səmədin atası Səməd kişinin ölüm xəbərini eşitdim. İki damcı yaş düşdü gözümdən. Biri Akif Səmədin ayrılığına, o biri isə uzun həsrətdən sonra torpaq altında ata-oğul qovuşuğuna...*

Bu da bu yoxuşun sonu,
Buydumu, ay Səməd əmi?!
Həsrət həsrətə qovuşdu -
«Toydumu», ay Səməd əmi?!

Çay kimi uzanır çatı,
Dərdlilər az yuxu yatır,
Torpağın aşağı qatı -
Öydümü, ay Səməd əmi?!

Akifiydi el aşığı,
Elin, evin yaraşığı,
Üzünə düşən işığı -
Duydumu, ay Səməd əmi?!

Kim idi ruhu sökülən,
Köksünə dağlar çəkilən,
Həsrət göylərdən tökülən, -
Suydumu, ay Səməd əmi?!

Bir kişi öldü elində,
Oğul harayı dilində,
İnsan əcəlin əlində -
Oydumu, ay Səməd əmi?!

## ÇAMIRLIQDA ÖMÜR SÜRMƏK

Çamırlıqda ömür sürmək -
çamırlıqla -
barışmaq kimi bir şeydi.
Haqqın kəsilən səsinə -
Alışmaq kimi bir şeydi.

Vərdiş adətə çevrilir,
Keçir qanına yeriyir,
Göylüyə cuman sürüyə -
Qarışmaq kimi bir şeydi.

Göz, qulaq da, ürək səsdə -
Ya bir az um, ya çox istə,
Ət uğrunda, sümük üstdə -
Yarışmaq kimi bir şeydi.

## YANIQ OT BİTİRİR

*Rüstəm Kamala*

Xram, Kür qırağı, Damcılı, Avey,
Bir az o tərəfdə - İncə dərəsi.
Mələyir sinəmdə, bir yaralı ney -
Kəsilib o yurdun bəndi-bərəsi...
Bir də açılmağa güman qalmayıb.

Keçdi karvanımız Sınıq körpüdən,
Keçdi Qarayazı dolaylarından.
Ya Ağlağan uddu, ya da Qaraxaç,
Ya qaldı Başkeçid dolaylarında -
Daha adlamağa aman qalmadı.

Karvan heç -
dağıdıb-şaqqaladılar,
Görən qaralırmı karvan yolları.
Ordan Ərzuruma, ordan Gümrüyə, -
Yurdun içlərinə gedən qolları -
basıb sındırdılar.
Yaxşı uralanıb, yaman qalmayıb.

Yanıq ot bitirir, Göydağ, Dəlidağ,
O tərəfi - gavur, burda biz uzaq.
Köç yolu dırmanmır üzü dağlara,
Nə qədər vaysınaq, nə qədər yanaq -
Daha ürəyimə daman qalmayıb.

Mən Qılınc kəndinə, sən Şıxlıya çıx,
Mən burda od çatım, sən orda tonqal.
Ruhlar harayına - mən dözəmmədim,
Təşnə ürəyinə yurd torpağı qat,
Ya da ki bir çəngə saman - qalmayıb.

## BU ÇAY BU YATAĞA SIĞMAZ...

Bu çay - bu yatağa sığmaz,
sığmaz, canım-gözüm, sığmaz.
Axar sular - dar məcrada -
axmaz, şirin sözüm, axmaz.

...Yatağı yandırar azı,
canı «usandırar» azı,
daşı dayandırar azı -
axmaz, qara gözlüm, axmaz.

Batan bulağı ağrıyar,
gəldiyi dağı ağrıyar, -
Yanı-yançağı ağrıyar, -
sığmaz dili sözlüm, sığmaz...

Çuxura düşüb -
qaldı ki,
Çırpınıb dözür -
laldı ki,
susur, - yoxsa xəyaldı ki,
hayı-harayı qaldı ki? -
çaxmaz, səhər üzlüm, çaxmaz.

**12.07.2017**

## NECƏ QIYIRSINIZ...

Allahsız uşağı, allahsız!
Bu ağaca necə qıyır əliniz?
Necə kəsirsiniz şah damarını,
Necə kəsirsiniz şöy vüqarını?

Necə kəsirsiniz, - güclə dayanır,
güclə dayanmaqdı dünyadan payı.
Yer altda kökləri, təşnədir - yanır,
Yer üstə dəhnədən kəsilib çayı...
Göyündə şimşəklər baş-başa gəlir,
Tövşüyür, təntiyir yerin nəfəsi
Necə qıyırsınız -
daş-daşı yeyir,
Necə qıyırsınız -
batır su səsi.

Canıyla əlləşir torpaqla, suyla,
torpağın altında gücü böyüyür -
yatır dədə-baba yuxularıyla.
Yatır yata-yata suçu böyüyür
bu ağaca necə qıyır əliniz.

Damarsız ağacdan nə pöhrə törər?
Torpağa pay edər alın tərini...
Nökər saxlayıbdı köhnə kişilər
urvatlı tutubdu öz nökərini...

Nökərdi, bekardı, sağdı, ölüdü,
olub qalanımız budu -
nədisə.
Ondan ocaq altda kösöv də olar,
palıd da yetirmək olar, qadası -
Bu ağaca necə qıyır əliniz?..

**04.04.2015**